# Qarabağ savaşında düşmənin hədəfində olmuş Tərtər yenidən qurulur





**Parlaq zəfərlərimizlə başa çatan 44 günlük müharibə Tərtər rayonunun sosial-iqtisadi həyatında dərin izlər qoymuşdur. Erməni işğalçıları müharibənin davam etdiyi dövrdə elə gün olmadı ki, Tərtər şəhərinə, rayonun ayrı-ayrı kəndlərinə raket və artilleriya mərmisi atmasın. Döyüş meydanında rüsvaylıqla məğlub olan düşmən sanki yaşayış məntəqələrini, dinc əhalini hədəf seçməklə təsəlli tapırdı.**

Aparılan dəqiq statistikaya görə, ay yarım davam edən müharibə zamanı Tərtər rayonu ərazisinə 16277 ədəd artilleriya mərmisi və raket atılmışdır. Nəticədə 40 yaşayış məntəqəsində çox sayda ev və müxtəlif təyinatlı sosial obyektlər dağılmış, 16 nəfər mülki əhali həlak olmuş, 63 nəfər yaralanmışdır.

Dövlətin dəstəyi ilə tərtərlilər savaş başa çatandan dərhal sonra müharibənin vurduğu yaraları aradan qaldırmaq üçün işə başlamışlar. Hazırda rayonun şəhər və kəndlərində müharibədən zərər çəkmiş 677 yaşayış evinin, eləcə də məktəb və uşaq bağçalarının, digər sosial obyektlərin təmir və bərpa işləri aparılır. Artıq 192 fərdi yaşayış evinin və mənzilin təmir-bərpa işləri başa çatmış, 40-a yaxın çoxmənzilli yaşayış binasının dam örtükləri təmir olunmuşdur.

Vətən müharibəsində qəhrəmanlıq nümunəsi göstərən tərtərlilər bu gün doğma yurdun hər qarışını abadlaşdırmaq üçün fədakarlıqla çalışırlar. Raket və mərmilərdən təmizlənmiş küçə və meydanlarda abadlıq, quruculuq işləri bu yaz günlərində geniş vüsət almışdır. Şəhərin bir çox küçələrinə asfalt örtük salınmış, istinad divarları aqlay və bəzək daşları ilə üzlənmiş, elektrik, qaz, telefon xətləri, qaydaya salınmışdır.

Bu günlər genişmiqyaslı abadlıq, quruculuq işləri ilə yanaşı, yaz-tarla işlərinə də start verilmişdir. Kənd təsərrüfatı məhsulları istehsalında böyük uğurlara imza atan, qabaqcıl təcrübə məktəbinə çevrilən Tərtər ölkə iqtisadiyyatının daha da güclənməsinə son illər sanballı töhfələr verir. Qarabağ zəfəri Tərtər kəndlisi üçün ikiqat sevindiricidir. Suqovuşanın nəzarətimizə keçməsi Tərtər rayonunda əkin sahələrinin 30 ildən bəri davam edən su problemini aradan qaldırmışdır.

Bu gün bolluq, bərəkət həvəsli Tərtər kəndlisinin əhvali-ruhiyyəsi yetərincə yüksəkdir. İndi taxıl zəmilərində becərmə işləri davam edir. Çiyid səpininə yenicə başlanmışdır. Tərəvəz sahələrində, meyvə bağlarında hamı həvəslə işləyir. Çünki daha top gurultusu, güllə səsi heç kimi diksindirmir.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***